## ANA VƏ TORPAQ

Körpə ananın südünü əmdi, yuxusunu yedi. Ana yanmadı, gözlərinin nuruna, ürəyinin qanına, qollarının qüvvəsinə, hamısını, hamısını verdi körpəsinə, nəfəsinə, həyat səsinə. Bir tikəsinə də yanmadı. Bir tikəsinə də. Böyütdü körpəsini, ömür səyyarəsini. Ayaq üstə qoydu. Torpaq üstə qoydu.

Torpaq sinəsində gəzdirdi onu. Yedirtdi, geydirdi. Ana nəvazişiylə, ana zövqüylə. Heç nəyini əsirgəmədi torpaq, heç nəyini. Əsirgəmədi ondan!

Oğul böyüdü, böyüdü... Əli çörəyə çatdı. Səsi-sədası el obanı aşdı, şəhərləri dolaşdı. Oğul məşhurlaşdı... Və birdən-birə o qədər qohum-əqrəbası tapıldı ki... Çoxunun heç səsini eşitmədiyi, üzünü görmədiyi, gördüklərinin də soyuqluğundan həmişə üşüdüyü qohum-əqrəbası. Özü də mat qaldı.

Çıraq yansın, pərvanələr öz-özünə yığışacaq. Yığışırdı qohumlar da. Yığışırdı. Söz-söhbət də qızışırdı. Biri daha yaxın qohum olduğunu, biri adı-sayınla göylərə sığmadığını söyləyir, kimi haçansa əlindən tutduğunu, kimi qayğı bəslədiyini sözarası deyir... Hərə bir cür yerini şirin salmağa çalışırdı. Hamı, hamı danışırdı.

Danışmayan yalnız ana idi, torpaq idi. Ana torpaq, torpaq ana! Onların təbiəti belədir. Təbiəti!

*22 sentyabr, 1966*